# Ağqoyunlu və Qaraqoyunlu Türkmənləri

«Ağqoyunlu» və «Qaraqoyunlu» Türkmən tayfaları Türküstandan İrana Arqun xan Hülakü çağında (1284-1291) gəlmişlər. Onlar adlarını öz bayraqlarındakı qara və ağ qoyunun təsvirindən götürmüşlər. Öncə Qaraqoyunlular İran Azərbaycanında, sonra isə Ərzurum, Ərzincan və Sivas çevrəsində yurd salmışlar. Ağqoyunlular, yaxud Bayandurlu tarixində Əbül Qazi Bahadur xanın yazdığına görə, «xoşbəxt» adlandırılanlar İran Azərbaycanından sonra Diyarbəkir vilayətini özlərinin daimi yaşayış yerləri seçmişlər. Bu tayfalar həmin yerlərdə tezliklə o dərəcədə güclənmişdilər ki, onlar müstəqil dövlət yaratmış və qonşu tayfaları özlərinə tabe etmişdilər. Sonralar 1411-ci, 1468-ci və 1502-ci illərdə Qaraqoyunlular və Ağqoyunlular (yaxud Bayandurlular) hər iki Azərbaycanı özlərinə tabe edəndə onlar burada yurd salmış və aşağıdakı obalarda yerləşmişdilər:

Cavanşir qəzasında — Qaraqoyunlu (2), Qaraqoyunlu – Salvar, Qara Yusifli və Qaravçilər Yusifli (Hər iki obanın adı bu tayfadan olan hökmdar Qara Yusifin adından götürülmüşdür), Mirzə Xan Qaraqoyunlu, Xan Qaraqoyunlu;

Göyçay qəzasında — Qaraqoyunlu;

Gəncə qəzasında — Qaraqoyunlu, Toqqalar Qaraqoyunlu, Tap – Qaraqoyunlu;

Zəngəzur qəzasında — Qaraqoyunlu, Bayandur;

Nuxa qəzasında — Çayqaraqoyunlu;

Quba qəzasında — Bayandur;

Şuşa və Lənkəran qəzalarında Dilağarda (Bu adı bu tayfadan olan sonuncu şah Cahan Padşah Qaraqoyunlunun bir tirəsinə vermişdir).

---

**Məhəmmədhəsən bəy Vəlili-Baharlı — *“Azərbaycan” (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**